**Masallıda marketdə saxta alkoqollu içkilərin aşkarlanmasına dair məlumat**

**(15 dekabr 2025)**

Masallı rayonunun Qızılağac kəndində fəaliyyət göstərən, Abbasov Zakir Ramazan oğluna məxsus marketdə Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən keçirilmiş yoxlama zamanı normativ hüquqi aktların tələblərinin pozulduğu aşkarlanıb.

Belə ki, marketdə ümumi sayı 62 ədəd "Gold Organic", "Organic Vodka", "Lux Organic" əmtəə nişanlı mənşəyi məlum olmayan saxta alkoqollu içkilər müəyyən edilərək satışdan kənarlaşdırılıb. Məhsullardan nümunələr götürülərək laborator müayinələrə cəlb olunub.

Faktla əlaqədar sahibkar barəsində inzibati protokol tərtib edilib, məhsullarla bağlı məhdudlaşdırıcı qərar qəbul olunub.